# Hər ulduzun öz işığı

*Nübar Eldarqızının "Əmanət" romanının təəssüratı altında düşüncələr*

İnsanlar təkcə hava ilə, su ilə, çörəklə qidalanmırlar. İnsanlar həm də sözlə yaşayırlar. Söz insanın ruhunun qidasıdır. Zövq mənbəyi olan sözsüz ruhun diriliyi də olmazdı. Şairə Nübar Eldarqızını sosial şəbəkədə yayılan sözündən tanımışam.

Üç hərfin birliyindən yaranan söz özü də çoxmənalıdır. Əlbəttə, mən ruhumuzun nəfəsi olan sözdən danışıram. Nübar Eldarqızının diqqətimi çəkən şeirləri elə ilk dəfədən ürəyimin tellərini tərpətdi. Sözün həqiqi mənasında, sözünə söykənən kimliyini gördüm.

Bu qədər yetkin bir söz adamının niyə söz mühitində olmadığına təkcə təəssüf etmədim, həm də acıdım.

Gör nə qədər istedad sahibləri var ki, biz onları görmürük, görə bilmirik.

Amma görmədiyimiz bu söz sahibləri dünyamızın nizamını qorumaq üçün özlərinin yanğı paylarını əsirgəmirlər.

Nübar Eldarqızı elə öz mühitində, əgər belə demək mümkünsə, təbii arialında nə qədər insanın mənəvi mühitini nizamda saxlayır, onlara ruhi qida bəxş edir. Öz sözü ilə insanlara insan olduqlarını zaman-zaman diktə edir. Onların insanlıq mühitini əsgər sərhədi qoruyan kimi qoruyur.

Nübar Eldarqızının şeirlərində acı bir təəssüf var. Yox, sözə gəlməyinə peşman deyil.

Onun "Ey gidi dünya" ümumi başlığı ilə şeirlərinə "Kredo"da (№2,(1032), 14.01.2021) yer ayırdıq. Koroğluyana təəssüfdür. Səndən, məndən, zəmanəmizdən ötmüş dünyanın bizim üçün gülümsəyən gözlərini xatırlayıb üzünü döndərib getməyinə yanan təəssüfdür.

Təkcə elə "Ey gidi dünya" (2020) sözlərinin içərisinə yığılmış təəssüf insanlara əvəzsiz xəbərdarlıq siqnalıdır. Vaxtla oynamayın, vaxtla oynamaq odla oynamaq qədər təhlükəlidir. Çünki vaxtın hər anı hərəkətdir.

Hey gidi cavanlıq, hey gidi dünya,
Bir az görünmürsən, unudulursan.
Gedib qapısını döysən, açmasa,
Kimi axtarırsan, burda bulursan...

Elə başdaşı var, güzgütək yanır,
Hər gün göz yaşıyla yuyulduğundan.
Qəbir var üstündə heykəl dayanır,
Bir gün gələn olub, - qoyulduğunda...

Ölülər şəhəri deyib keçmə sən,
Qəbrin də ölüsü, dirisi vardır.
Baxma başdaşına, hər qəbrin ömrü
Sevən sonuncunun ömrü qədərdir!

Beləcə, Nübar Eldarqızının şeirləri insan mənəviyyatının dərinliklərinə qədər nüfuz edir, onun qəlbinin ən incə tellərin toxunur. İnsanlıq adı daşımağın, insanlıq hissləri ilə yaşamağın məsuliyyətini dərk etməyə çağırış var onun şeirlərində.



Nübar Eldarqızı Şirvan şəhərində yaşayır. Sabirabad rayonundakı Şıxsalahlı kənd kitabxanasında işləyir. Çox güman ki, təhsili də elə bu yöndəndir. İki kitab müəllifidir. 2003-cü ildə "Məni sevməsəniz" adlı şeirlər kitabı çap olunub. Əvvəllər - sözün daha məsuliyyətli zamanında "Azərbaycan", "Ulduz" jurnallarında, "Ədəbiyyat" qəzetində şeirləri çap olunub.

Ədəbiyyatımızın cəfakeşi Vaqif Yusifli onun yaradıcılığına dəyər verən məqalə ilə çıxış edib, gələcəyinə böyük ümidlərlə inamını gizlətməyib.

Nübar Eldarqızı qələm sahibidir, qələm onun əlində əsmir. Qələm onun üçün ürəyindən enerji alan işıq mənbəyidir. Həyatın bir-birinə zidd olan düşüncələrin dərin cəngəlliklərindəki ziddiyyətli həqiqətləri üzə çıxarmaqda, sözə gətirməkdə qələminə güvənclidir.

Həyat həqiqətləri onun yazılarının nüvəsində dayanır, istər poeziyasında, istərsə də publisistikasında.

Bir publisistik kitabı da 2004-cü ildə çap olunub. Bir el ağsaqqalının, müdrikin həyat yoluna işıq tutub. Ləyaqətlə yaşanmış insan ömrünü gələcək nəsillər üçün örnəyə çevirib.

Nübar Eldarqızı sözlə nəfəs alır. Hər birimizin gördüyü, görə biləcəyi ən xırda həyat detalına belə məzmun verə bilir. Dini-mifik düşüncəyə söykənişlə sanki torpağı yoğurub ona öz ruhu ilə nəfəs verə bilir.

Nübar Eldarqızının çox maraqlı esse dili var. Nəsirlə poeziyanın peyvəndi ilə zühura gələn bu dil əsil sənət əsərini yaratmaqda bir ecazkarlıq vasitəsidir.

Nübar Eldar qızının "Ana" essesi...

Oxudum və təssüratımı özünə xitabla başladım.

Nübar xanım, "Ana" adlı esseni oxudum...

Çox ağır təəssüratlar altında düşünürəm. Kiçik, amma məhdud deməzdim, mənəvi mühiti necə ustalıqla böyüdə bilirsən. Sənin "esse" adlandırdığın bu əsər, heç bir şərti qəbul etmədən deyirəm; bu əsil "Ana" romanıdır.

... Bir dəfə Əlibala Hacızadənin yarımvərəqlik bir bədii əsərini çap etdim. Və həmin yarımvərəqlik əsərin üzərində "etüd - roman" janr bildirimi yazdım. Bəli, mən həmin yarımvərəqlik əsəri "roman" adlandırdım.

Qəzeti alandan sonra ustad birbaşa "Kredo"ya gəldi. Məni qucaqlayıb öpdü. Mən bilirdim bu yarım vərəqlik əsər romandır, - dedi. Ancaq bunu kim dilinə gətirəcək, bunu bilmirdim. Açığı heç inanmırdım da, kimsə beləsi tapılsın. Bu sən oldun, Əli Rza - ustad Əlibala Hacızadə elə beləcə də dedi.

Bir də üç il əvvəl Qulu Məhərrəmlinin həyatı ilə bağlı bir yazımı çap etmişdim. Həmin yazının içərisində üç ulduzla ayrılmış kiçik bir hissə vardı. Professor həmin yazını oxudu... və hiss etdim ki, dərin bir təəssürat duyğuları altındadır. Sonra öz-özünə danışırmış kimi dedi: Demək, belə kiçik həcmdə roman yazmaq olar... Nə isə...

Səni çox dəyərli "Ana" romanına görə təbrik edirəm.

*(Davamı 16-cı səhifədə)*

Kredo.- 2021.- 8 sentyabr.- S.1;16.

# Hər ulduzun öz işığı

*Nübar Eldarqızının "Əmanət" romanının təəssüratı altında düşüncələr*

*(Əvvəli 1-ci səhifədə)*

Ətraflı təhlilə hövsələm çatmır, demək, sənin çox orijinal nəsr dilin də var. Dil istedadı üzə çıxarmaq üçün vasitədir - Allah əmanəti olan vasitə...

Elə Allahın əmanətlərini də Allahın əmanəti olan dilimizlə qoruyuruq.

Yazını bütövlükdə ruhuma yığdım və elə bildim ki, bu yazı bütöv bir romandır və mənim bu qeydlərim də elə həmin roman üçün ön söz. Yaddaşımda da elə beləcə saxlayaram.

Hörmətli Nübar Eldarqızı, "Ana" romanını oxuyan hər kəs - sən bu əsəri əmanət adlandırırsan, janrını da "esse" deyə qeyd edirsən - görəcək ki, sən sözü axtarmırsan... Heç söz üçün hansısa düşüncə künc-bucağını gəzmirsən də.

Gözüm göynədi... Çünki sənin çəkdiyin mənzərəni bütün dərd rəngləri ilə görürəm. Yəqin yaş baxımından mənə nəzərən uşaq olarsan. Elə bu səbəbdən də sənə qızım kimi ərk də duyuram yanaşmamda.

Dərdi bu cür ali səviyyədə yüksək ucalığa, ictimai məzmuna qaldırmaq təkcə istedad yox, həm də yüksək müşahidəyə güvənən həyat bilgisi tələb edir. Bir-iki kəlmə də sənin qədərindən artıq təvazö, bir az da şübhə ilə kənardan dolanmağına da münasibətimi bildirmək istərdim. Əlbəttə, bu təkcə sən deyilsən. Görünür, insanlar o qədər saxtalıq görüb ki, asanlıqla şübhə xofundan qurtula bilmirlər.

Yeni kitabını işlə, bitir. Mən kağız variantında oxuyuram. Gəlib əlimə çatsa məmnuniyyətlə "Ön söz" yazaram. Bu da şərtidir, "Ön söz"ü mən yazdım, ya qeyrisi, əsas odur ki, yeni kitabını çap etdir. Özü də həyatın heç bir çətinliyinə baxmadan.

Ruhumuz, varlığımız yaşayırsa, sənin kimi dünyanı saf nəzərlə görənlərin və bu dünyanı təzadlı rəngləri ilə yazanların qələminə çox borcluyuq.

Əlbəttə,mübahisələr də, etirazlar da ola bilər. Roman dünya modelidir. Romanda həyat ağacı kökündən, rişələrindən tutmuş budaqlarına, yarpaqlarına qədər bütöv görünməlidir. Hələ üstəlik təzadlı rənglər, qarşılaşan hadisələr romanda üzə çıxmalıdır. Əlbəttə, bir çox həqiqətlər yazının alt qatı ilə getməklə. Mən dünya ağacını sənin romanında görürəm... Mən əsərin özündən sitatlar gətirmədim. Çünki əsər özü bu yazı ilə birgə təqdim olunur. Oxucunun kifayət qədər mühakimə imkanı var.

* * *

Bir anlığa belə düşünək: göy üzündə təkcə Günəş var. Gündüz ötür, aləm qaranlığa bürünür. Gecənin zülməti - Aysız, ulduzsuz zülməti bizi darıxmaq girdabında boğardı.

İşıqsız ünsiyyətin harmoniyası dağılar.

Ay da, ulduzlar da Günəşin zərrələrə bölünmüş hissələridir - gecənin qaranlığa işıq gətirən zərrələri.

Yenə sözün ayağı sürüşür, dizi titrəyir, bəlkə göydə təkcə Ay qalsın? Ay işığı bəs edərmi bizim darıxmaq girdabından çıxmağımıza? Ulduzların harmoniyası kainatın cazibdarlığını qoruyur. Gecənin zülmətində parlayan ulduzlar bizim həyat sevgimiz kimi zərrələrə dönüb göylərinənginliyinə uçur və təzədən bizə qayıdır.

...Uşaq vaxtı nənəmin qucağında yatardım. Yay olanda, çöldə... Gözüm də göyə, ulduzlara baxardı. Nənəm deyərdi ki, o ulduzların hərəsi bir adamdır.

O vaxtdan bəri axan ulduzu görəndə dünyamızdan kiminsə uçub getdiyini düşünürəm.

Hansısa axan bir ulduzun əvəzinə bizdən ayrılanlar uçub səmaya gedir.

Nübar Eldarqızı, elə sənin Allahın özünə qaytardığın Allahın əmanəti kimi.

Qısası, yekun üçün nə deyim? Deyirlər ofsunçular xüsusi səs, avaz və İlahi kəlmələrlə ovsun oxuyur və ilanı öz ovsunları ilə ən gizlin yerdən belə çıxara bilirlər.

Sözün ilan gücü var. O, hər kəsin dilinə, tavazına aldanmaz. Ancaq sözün ovsununu bilənlərin çağırışına gələr.

...Ovsun oxu, söz toxu! Nübar Eldarqızı, sən sözün ovsununu bilirsən axı!

**Əli Rza Xələfli**

*08.09.2021*